# Ana dilimizin fədaisi

Professor Yaşar Qarayev deyirdi ki, Mirzə Cəlildən sonra Arazı keçən, o taya ana dili aparan, Təbrizdə qəzet nəşr eləyən ikinci ədibimiz Mirzə İbrahimov oldu! Məhz Cənub mövzusuna sədaqəti onu nasirlərimiz içində hamıdan ayırdı. Mirzə İbrahimov o taya ana dilini aparmaqla yanaşı, Təbrizdə ana dilində nəşr olunan “Vətən yolunda” adlı qəzetinin də bünövrəsini qoydu.

Cənubi Azərbaycan mövzusu M. İbrahimovun yaradıcılığında mühüm yer tutur. Bu mövzuya müraciəti sözsüz ki, daxili tələbdən, zərurətdən doğmuşdu. Qəlbində daim böyük bir Cənub nisgili gəzdirən Mirzə İbrahimovun “Gələcək gün”, “Cənub hekayələri”, “Azad” operasının ssenarisi, onlarla publisistik, ədəbi-tənqidi yazıları vardır.

Mirzə İbrahimov, məlum olduğu kimi Cənubi Azərbaycanda doğulmuşdu. Lakin onun yeddi yaşı olanda atası Əjdər kişi ailəsini aclıqdan qurtarmaq üçün Bakıya gətirmişdi. Aradan 23 il keçdikdən sonra ölkəmiz II Dünya savaşında ölüm-dirim mübarizəsi apardığı illərdə əsgər şinelində Cənubi Azərbaycana getməli oldu. O illərdə orada baş verən hadisələri gözləri ilə görmüşdu. Dili, milli kimliyi, azadlığı əlindən alınan xalqın halına yanmış, dərd-səri ilə yaxından ilgilənmişdi. Səttar xanın, Xiyabaninin övladlarını yenə də azadlıq və istiqlal uğrunda çarpışan görmüşdü. Ona görə Güney Azərbaycanın ictimai-siyasi həyatında baş verən hadisələr onun yazdığı əsərlərdə, epik lövhələrdə ustalıqla təsvir olunur. “Gələcək gün” (1948) romanı ədəbiyatda böyük bir hadisəyə çevrilə bilmişdi. Bu əsər SSRİ Dövlət mükafatına layiq görülmüşdü. İsmayıl Şıxlı əsərin belə məşhurlaşmasının sirrini çox gözəl açıqlayaraq yazırdı; “Gələcək gün” romanı əvvəla, böyük bir ictimai dəyəri olan siyasi roman idi. İkincisi, bu əsər kəskin konfliktlər, böyük ehtiraslı insanlar, möhkəm iradəli nəhəng xarakterlər romanı idi. Bu romanda İrandakı bütün ictimai zümrələrin həyatı, psixologiyası, ictimai hadisələrə münasibəti, mahir bir sənətkar qələmi ilə təsvir edilib. M.İbrahimovun qələbəsi onda oldu ki, “Gələcək gün” romanında ictimai hadisələri insanların taleyi ilə, psixoloji halları ilə çarpazlaşdıra bildi. İctimai hadisələri qəhrəmanların tərcümeyi halına çevirdi.

1941-ci ildə Təbrizdə Azərbaycan dilində çıxacaq “Vətən yolunda” adlanan ordu qəzetinin redaktorluğu Mirzə İbrahimova tapşırılmışdı. “Vətən yolunda” qəzetinin ilk sayı 1941-ci ilin oktyabr ayının 11-də çapdan çıxır. Qəzet Azərbaycan dilində günaşırı nəşr olunurdu. Qeyd etmək lazımdır ki, “Vətən yolunda” qəzeti 1920-ci ildə Xiyabani hərəkatı yatırıldıqdan sonra Azərbaycan dilində çıxan ilk qəzetlərdən olur. (1941-1946) Baş redaktorları Mirzə İbrahimov, Həsən Şahgəldiyev və Rza Quliyev olmuşlar. Qəzetin redaksiyasında yazarlardan Süleyman Rüstəm, Osman Sarıvəlli, Məmməd Rahim, Əvəz Sadıq, Qılman Musayev (İlkin), Seyfəddin Dağlı, İsrafil Nəzərov (məsul katib), Qulam Məmmədli, Cəfər Xəndan (baş redaktor müavini) və bir çox başqaları işləmişlər. Təbrizdə “Vətən yolunda” qəzetində Mirzə müəllimlə işləyən yazıçı Qılman İlkin xatirələrində yazırdı ki, Mirzədə fövqaladə bir müşahidəçilik və dərk etmək istedadı vardı. O, Təbrizdə də qəzet redaktə etməklə yanaşı, Cənubi Azərbaycanı qarış-qarış gəzir, ən ucqar kəndlərdə belə olur, əhali ilə görüşür, onların dərd və istəklərini öyrənirdi. Digər tərəfdən o, gələcək əsərləri üçün materiallar toplayır, gələcək nəsr və publisistik əsərləri üzərində düşünürdü.

Yazılarını çox zaman "Əjdəroğlu", bəzi hallarda İ. Mirzə adı ilə imzalayırdı. "Vətən yolunda" qəzetində Mirzə İbrahimovun yazılarının az bir qismində imza olurdu. Qəzetdəki baş məqalə və redaksiya məqalələrinin onun qələminə məxsus olduğunu ehtimal etmək olar.

"Vətən yolunda" qəzetinin ilk sayi oktyabrın 11-də, 4000 tirajla nəşr olunmuşdu. O dövr üçün bu tiraj yüksək göstərici idi, lakin qəzetin ilk sayı qısa müddətdə satılıb qurtarmışdı.

Qəzetin səhifələri çeşidli rubrikalar altında publisistik yazılar və kəskin felyetonlar, incəsənətlə bağlı icmallar, nəsr və poeziya nümunələri ilə zəngin idi. Bütün bunlar söz yox ki, qəzetin redaktoru Mirzə İbrahimovun gərgin zəhməti bahasına başa gəlirdi.

Qəzetdə nəşr olunan bədii nümunələrin əsas hissəsini poeziya təşkil edirdi. İlk saylarda S. Vurğunun, S. Rüstəmin, O. Sarıvəllinin bir çox şeirləri dərc olunmuşdu. O illərdə "Vətən yolunda" və "Azərbaycan" kimi qəzetlərdə folklorun toplanıb öyrənilməsi, yayılması işi geniş yayılmışdı.

Görkəmli tədqiqatçı Cəfər Xəndan bu qəzetdə çalışmaqla bərabər, onun fəaliyyətini geniş şəkildə işıqlandırmışdır. O yazırdı ki, qəzetin Cənubi Azərbaycanın bütün şəhər və kəndlərində, Tehranda, Qəzvində və s. yerlərdəki azərbaycanlılar arasında oxucuları var idi. İran şəraitində əksər qəzetlərin 300-dən 3000-ə qədər oxucusu olduğu halda, "Vətən yolunda"nın oxucuları 15000-dən artıq idi. Oxucular günaşırı çıxan bu qəzetin hər nömrəsini səbirsizliklə gözləyir və yığıb saxlayırdılar. Qəzet özünə geniş oxucu auditoriyası toplaya bilmişdi. O illərdə "Vətən yolunda" qəzetinin həm də fəal əməkdaşı olan Qılman İlkin yazırdı ki, "yerli azərbaycanlılar bu qəzeti özlərinin doğma mətbuatı bilib oxuyur, ondan öyrənir və onda iştirak edirdilər". Getdikcə yerli ziyalılardan çoxları redaksiyamıza ayaq açdılar. Qəzetlə bağlı ən xoş arzu və minnətdarlıqlarını bizə bildirirdilər. Qəzetin birinci mərhələdə cəmi 6 ay fəaliyyət göstərib qapadılması Güney Azərbaycanda olan siyasi işçilərin Bakıya geri çağırılması ilə əlaqədar idi. Onu da qeyd etmək lazımdır ki, Təbrizdə fəaliyyət göstərən işçi qrupu ilə Sovet Hərbi diplomatik nümayəndələri arasında münasibətlər ziddiyyətli idi. O dövrdə baş verən hadisələri araşdırmaya cəlb edən C. Həsənli yazır: Güney Azərbaycandakı proseslərin getdikcə milli müstəviyə keçməsi sovetləri o qədər də təmin etmirdi… Hətta A. Smirnov ilk olaraq türk dilində çıxan və Güney Azərbaycanda əl-əl gəzən "Vətən yolunda" qəzetinin bağlanması haqqında SSRİ Xarici İşlər Komissarlığına müraciət də etmiş, lakin M.C.Bağırov da öz növbəsində "Vətən yolunda" qəzetinin bağlanmasına etirazını bildirib vaxtında bunun qarşısını ala bilmiş, məsələnin müsbət həllinə nail olmuşdu…"

Qəzet Azərbaycan ədəbiyyatının klassiklərini, eləcə də çağdaş şairləri və digər söz sənətkarlarını tanıdırdı.

Milli Hökumətin ana yasasının yazılmasında Mirzə İbrahimov yaxından iştirak etmişdi. Bununla yanaşı ADF-nin proqram sənədləri, partiya protokollları, müxtəlif çıxış və məruzələr, xüsusilə də Milli hökumətin baş naziri Seyid Cəfər Pişəvərinin bir sıra məqalə və çıxışları, publisistik məqalələrinin 1946-cı ildə bir toplu şəklində "Qızıl səhifələr" adlı kitabda işıq üzü görməsində Mirzə İbrahimovun böyük rolu olmuşdu.

Mirzə müəllim bir çox məsul vəzifələrdə çalışmışdı. 1942-46-cı illərdə Azərbaycan SSR maarif naziri işləyən Mirzə İbrahimov Güney Azərbaycanda

maarif və mədəniyyətin təşkili işinə də məsul idi, bu işdə xüsusi həvəs və zövqlə fəaliyyət göstərirdi.

“Vətən yolunda” qəzeti Güney Azərbaycan ədəbiyyatında, publisistikasında yeni qələm ordusunun yaranmasında da az iş görmürdü. Şimaldan gələn yaradıcı ziyalılara Mirmehdi Etimad, Əli Fitrət, Balaş Azəroğlu, Çavuşi, Əli Tudə, Mədinə Gülgün, Mirrəhim Vilayi, Məhəmməd Abbasi, Hilal Nasiri, Məhəmməd Biriya və bu kimi yerli həmkarları da qoşulmuşdu. O illərdə qoyulan bünövrəni sonrakı illərdə cənublu ziyalılar layiqincə davamlı inkişaf etdirirdilər. Göründüyü kimi, Azərbaycan ədəbiyyatında, publisistikasında yeni qələm ordusunun meydana çıxmasında “Vətən yolunda” qəzetinin və onun ilk redaktoru Mirzə İbrahimovun rolu danılmazdır.

1945-ci ildə “Vətən yolunda” qəzetinin nəzdində “Şairlər məclisi” təşkil olundu. Bütün Cənubi Azərbaycan və İranda şöhrət tapan “Vətən yolunda” qəzeti həm də az zaman içərisində Cənubi Azərbaycan şairlərinin ədəbi mərkəzinə çevrildi. Məclis “Şairlər məclisi” adı altında aylıq ədəbi məcmuə də hazırlayırdı. Məcmuənin bütün sayları 1945-ci ilin noyabr ayında bir kitab şəklində çap olundu. Qeyd edək ki, bu toplu Cənubi Azərbaycan yazarları ilə bağlı ilk antologiya kitabı idi. Aradan 40 il keçdikdən sonra Mirzə İbrahimovun rəhbərliyi və redaktorluğu ilə Bakıda İY cildlik “Cənubi Azərbaycan ədəbiyyatı antologiyası” çap olundu.

“Vətən yolunda” qəzetinin 1945-ci il 119-122-ci saylarında dərc olunmuş “Azərbaycan dili” adlı məqaləsində Mirzə İbrahimov ana dilinin hər bir insanın həyatında xüsusi əhəmiyyət daşıdığını bildirir. Hər bir xalqın dilinin onun milli varlığı və mənəvi aləminin ifadəçisi olduğunu xüsusi vurğulayaraq yazırdı: “Ta qədim zamanlardan bəri tarix göstərir ki, hər hansı xalq öz millət və mənəviyyatını saxlamaq üçün öz vətəni və dövləti ilə bərabər öz dilini də saxlamağa cəhd etmişdir. Çünki hər xalqın ana dili onun milli varlığının və mənəvi aləminin ifadəsidir. Beləliklə, dil xalqın milliyyət və varlığını bildirən və qoruyan mühüm amillərdən biridir.

O illərdə Mirzə İbrahimovun yaxın məsləkdaşı, Milli hökumətin qurucusu və rəhbəri S. C. Pişəvəri də “Əjdəroğlu” kimi “Ana dili” məsələsinə ciddi önəm vermiş, qurduğu dövlətdə rəsmi status almasına nail olmuşdu. Ali Sovetdə işlədiyi vaxt Azərbaycan dilini dövlət dili elan etməsi onun vətənə, xalqa xidmətlərinin zirvəsi idi. Bu məsələ ilə bağlı onun başı az ağrımadı. Qızı Sevda İbrahimova o illəri sonralar xatırlayıb yazacaqdı: “Atamın ali sovetdə işlədiyi vaxt qaldırdığı dil məsələsi – Azərbaycan dilini dövlət dili elan etməsi, onun həyatının ən vacib, ən yüksək nöqtəsi idi. Bu məsələ ilə ona nə qədər ittihamlar edildi, onu sındırmaq, əzmək istəyənlər oldu… Lakin atamın möhkəm iradəsi, dəyanəti, mərdliyi, cəsarəti və xalqına olan böyük məhəbbəti onu öz əqidəsində, öz prinsiplərində daha da möhkəmlətdi”.

Xalq şairimiz Nəbi Xəzrinin təbirincə desək, Mirzə müəllim Şah İsmayıl Xətaidən sonra dilimizi dövlət səviyyəsində görür, bunun üçün imperiya siyasəti dövründə bacardığı işi görməyə çalışırdı.

Mirzə İbrahimov bir yazıçı və dövlət xadimi kimi yüksəlsə də, parçalanmış Azərbaycanın birləşmək dərdi həmişə onun ürəyində qövr edirdi. 1944-cü ildə Mirzə müəllim Stalinə mühüm və gizli məktub yazır, surətini M. C. Bağırova yollayır. Məktubun surətini belə özündə saxlamağa ehtiyat edir. Az keçmir, onu İrandan geri çağırırlar. Əvvəlcə M. C. Bağırov onunla söhbət edir. Sonra isə onu

Kremlə çağırırlar, Molotovun qəbuluna. Çox get-gələ saldıqdan sonra buraxırlar. Məktubda yazılanlarla bağlı uzun illər keçdikdən sonra DTK-nin əməkdaşı Yasif Nəsirli Mirzə müəllimə həsr etdiyi xatirəsində yazıb. Məktubda Gülüstan müqaviləsini ləğv etməyin vaxtının çatdığını, Azərbaycanın birləşib bir vahid dövlət olmaq kimi tarixi məqamının yetişdiyini Stalinə bildirirdi Mirzə müəllim. On ildən artıq Mirzə İbrahimovla bir yerdə çalışmış tanınmış publisist və millət vəkili Elmira Axundova Mirzə müəllimlə bağlı bir fikri də çox maraqlıdır. O qeyd edir ki, Cənubi Azərbaycan və Arazın o tayında yaşayan həmvətənlərimiz barədə mətbuatda hələ açıq danışmaq imkanı olmazdan əvvəl M. İbrahimov Ədəbiyyat institutunda xüsusi şöbənin açılmasına nail olmuş və həmin şöbə onun təkidilə "Cənubi Azərbaycan ədəbiyyatı" şöbəsi adlandırılmışdı. Cənubi Azərbaycan anlayışını elmi dilə məhz Mirzə İbrahimov gətirmişdi. Ondan əvvəl tarixçi və ədəbiyyatşünaslar "İran Azərbaycanı" terminindən istifadə edirdilər. Nizami adına ədəbiyyat institutunun "Cənubi Azərbaycan ədəbiyyatı" şöbəsinə rəhbərlik edən Mirzə İbrahimovun o taylı soydaşlarımızın bədii söz örnəklərinin ciddi, sistemli öyrənilməsi, nəşri və yayılmasını təmin etmək yolunda zəhməti çox olub.

Uzun illər (xüsusilə 1920-ci illərdən sonra) hər iki tayda–sovetlər birliyində bolşevik, İranda şah rejimi tərəfindən "ikiyə bölünmüş Azərbaycan məsələsi" mövzusu yasaq olunmuşdu. "Vətən yolunda" qəzetində dərc olunan materiallarda ikiyə parçalanmış xalqın mənəviyyatı, mədəniyyəti, tarixi, ədəbiyyatı küll halında verilirdi. O illərdə "Vətən yolunda" və "Azərbaycan" kimi mətbu orqanlarının səhifələrində ikiyə bölünmüş xalqın faciəsini, dərdini, hiss və duyğularını əks etdirən "parçalanmış vətən həsrəti", "ayrılıq" və vahid Azərbaycan mövzusu yaranırdı.

1941-ci ildən etibarən hər iki taylı azərbaycanlılar arasında bu günümüzə qədər gəlib davam edən bir ədəbi hərəkatın əsası qoyulurdu… Bu ədəbi qəzetin səhifələrində çap olunmuş Mirzə İbrahimovun publisistik yazıları və Süleyman Rüstəmin şeirləri ilə başlamış və günümüzə qədər davam etməkdədir. Beləliklə, bu fikirlə çoxları razılaşar ki, M. İbrahimov publisistikasının ən yaxşı səhifələri Cənubu Azərbaycan xalqının şah rejiminə qarşı və milli kimliyi uğrunda mübarizəsinə həsr olunub.

**Pərvanə Məmmədli.**